**2025-2026-ci tədris ilində "Son zəng" tədbirinin təşkilinə dair**
**TƏLİMAT**

## 1. Ümumi məlumat və tədbirin təşkili üzrə məsuliyyət

Ümumi təhsil müəssisələrində "Son zəng" tədbirinin təşkil edilməsinə ümumi təhsil müəssisəsinin direktoru rəhbərlik edir, tədbir zamanı, tədbirdən sonra ümumi təhsil müəssisəsində baş verən hər hansı neqativ hadisəyə məsuliyyət daşıyır. Tədbir ümumi təhsil müəssisəsinin həyətyanı sahəsində, həyətyanı sahəsi olmayan müəssisələrdə isə idman və ya akt zalında təşkil olunmalıdır. Tədbir tədris prosesinə mane olmadan keçirilməli və təhlükəsiz şərait təmin edilməlidir.

**1.1.** "Son zəng" tədbiri **13 iyun 2026-cı il tarixində** səhər saat **8:00, 9:00 və ya 10:00**-da başlamalı və ən geci **2 saat ərzində** bitməlidir;

**1.2.** "Son zəng" tədbirində aşağıdakı şəxslərin iştirakı mümkün hesab edilir:

- 1-ci və 11-ci sinif şagirdlərinin valideynləri (qəyyum/himayəçi);
- Təhsili idarəetmə orqanlarının nümayəndələri (ETN, MÜTDA, BŞTİ, RTİ);
- Asayişi qorumaq üçün əvvəlcədən müəyyən edilmiş polis nümayəndələri, yerli icra hakimiyyətinin nümayəndələri, şəhid ailələrinin üzvləri və qazilər, məktəbin ictimai-sosial həyatında xüsusi rolu olan valideynlər.

**1.3.** Şagird geyimi, nizam-intizam və etik davranış tələbləri:

- Şagirdlər tədbirdə məktəbli formasında olmalıdır;
- Məzunların xarici görünüşü təhsil müəssisəsinin intizam qaydalarına uyğun və səliqəli olumalıdır;
- Bayağı musiqilərin səsləndirilməsinə yol verilməməlidir.

## 2. Tədbirin məzmunu və ssenari tələbləri

2.1.Tədbir üçün milli-mənəvi dəyərlərə uyğun hazırlanmış, rəsmi və bədii hissədən ibarət ssenari olmalı, ssenari müəssisə rəhbəri tərəfindən imza və möhürlə təsdiqlənməlidir;

2.2.Tədbirin açılışı Azərbaycan Respublikasının Dövlət Himni ilə başlamalı, daha sonra şəhidlərin xatirəsi 1 dəqiqəlik sükutla yad edilməlidir.

**3. Məktəbdaxili təşkilati tədbirlər və əlavə tələblər (xüsusi qeydlər)**

3.1.Tədbirdə təşkilat və idarələrin nümayəndələri üçün xüsusi hazırlıq işləri aparılmamalı, masada yalnız içməli su olmalıdır. Həmin şəxslərə hədiyyə və gül dəstələrinin təqdim olunması qadağandır;

3.2. Tədbirin bədii hissəsi yalnız məktəbin daxili imkanları əsasında təşkil olunmalıdır;

3.3. Qeyd olunan tələblərlə bağlı pedaqoji şura iclası keçirilməli, müvafiq qərarlar qəbul edilməli və valideynlərin məlumatlandırılması məqsədilə təlimat hazırlanaraq məktəbin görünən guşələrində yerləşdirilməlidir. Valideynlər tədbirdən öncə maarifləndirilməlidir.